# RESPUBLİKANIN ƏRZAQ TƏHLÜKƏSİZLİYİNDƏ NOXUD VƏ MƏRCİMƏYİN ROLUNUN PERSPEKTİVLİYİ

**Kamilə Şıxəliyeva**

*Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Genetik Ehtiyatlar İnstitutu, kamila53@mail.ru*

Ölkə əhalisinin ərzaq təhlükəsizliyinin təmin olunmasında kənd təsərrüfatı məhsullarının, o cümlədən ərzaq paxlalılarının istehsalının artırılması və keyfiyyətinin yüksəldilməsi əsas rol oynayır. Azərbaycanın torpaq-iqlim şəraiti paxlalı bitkilərin becərilməsi üçün çox əlverişlidir. Burada noxud və mərcimək qiymətli bitki kimi qədimdən becərilir.

Respublikamızda bu bitkilərin istehsalını artırmaq üçün yeni məhsuldar, keyfiyyətli, xəstəliklərə davamlı sortların yaradılması, toxumçuluğunun təşkili, becərmə texnologiyalarının müəyyən edilməsi, yığımının mexanikləşdirilməsi və təsərrüfatlarda tətbiqi qarşıya qoyulmuş əsas məqsədlərdəndir. Seleksiya işlərinin aparılmasında bitkilərin vegetasiya müddətinin uzunluğu, bitkinin boyu, xəstəliklərə davamlılığı, məhsuldarlığı və s. göstəricilərə xüsusi fikir verilir. Odur ki, ərzaq paxlalılarının bu göstəricilərinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Hazırda Genetik Ehtiyatlar İnstitutunun nəzdindəki Milli Genbankda 800-dən çox noxud və mərcimək forması saxlanılır və öyrənilir.

Noxud bitkisi üçün təsərrüfat əhəmiyyətli əsas göstəricilərdən biri bitkinin boyudur. Bitkinin tədqiq olunan nümunələrinin 5,9%-nin boyu 40 sm-dən qısa, 94,1%-nin boyu 40 sm-dən hündür olmuşdur.

Noxud bitkisinin məhsuldarlığını məhdudlaşdıran əsas amillərdən biri də onun xarakterik askoxitoz və fuzarium xəstəliklərinə yoluxmasıdır. Bu xəstəliyə sirayətlənmiş bitkilər zəif inkişaf edir, fotosintetik aktivliyi aşağı düşür. Xəstəliyə tutulma dərəcəsi yüksək olan hallarda isə ümumiyyətlə generativ orqanları əmələ gəlməmiş bitkilər tələf olur. Öyrənilən nümunələrin xəstəliklərə davamlılığı 9 ballı şkala əsasında çiçəkləmə, paxlanın əmələ gəlməsi və yetişmə fazalarında qiymətləndirilmişdir.

Noxud bitkisinin ərzaq və toxum kimi istifadəsində əsas göstəricilərdən biri də toxumun iri və dolu olmasıdır. Buna görə də nümunələrdə 100 toxumun kütləsi müəyyən edilmişdir. Məlum olmuşdur ki, nümunələrin 8,3%-də toxumun kütləsi 30 qramdan az, 83,3%-də 30,0-40,0 qram arasında, 8,4%-də isə 40,0 qramdan çox olmuşdur.

Respublukamızda ən çox istifadə olunan ərzaq paxlalı bitkilərindən biri də mərciməkdir. Toxumunda zülalın miqdarı 27-36%-ə qədər olan mərcimək özündə demək olar ki, bütün əvəzolunmayan amin turşularını və B qrupu vitaminlərini birləşdirir.

Ölkəmizdə ayrı-ayrı bölgələrdə becərilən mərcimək nümunələri tez-tez kütləvi surətdə fuzarioz xəstəliyinə tutulur ki, bunun da nəticəsində istehsalın rentabelliyi aşağı düşür və fermerlərin bu sahəyə marağı azalır.

Tədqiq olunan nümunələrin vegetasiya müddəti 163-175 gün davam etmişdir.

Mərcimək bitkisi üçün təsərrüfat əhəmiyyətli əsas göstəricilərdən biri də bitkinin boyudur. Becərilən yerli formalar qısaboylu olduğundan, məhsulun mexaniki üsulla yığımı zamanı itki çox olur. Eyni zamanda belə formaların məhsulunun əmtəəlik xüsusiyyətləri də yüksək olmur. Tədqiq olunan nümunələrin 14,4%-nin boyu 30 sm-dən qısa, 66,5%-nin boyu 30,0-40,0 arasında, 19,1%-nin boyu isə 40 sm-dən hündür olmuşdur.

Mərcimək nümunələri üçün 100 toxumun kütləsi təyin olunmuşdur. Nümunələrin 26,7%-də bu göstərici 5 qramdan az, 73,3%-də isə 5 qramdan çox olmuşdur.